# “050639-Uçuş mühəndisliyi” və “050613-Hava nəqliyyatının hərəkətinin təşkili” ixtisaslarında praktiki hazırlığın xərcləri

**“050639-Uçuş mühəndisliyi”** – ixtisasında praktiki hazırlıq tələbələrin uçuş və trenajor təlimlərindən ibarətdir.

“050639-Uçuş mühəndisliyi” ixtisasını tələbələr 2 kateqoriya üzrə bitirə bilərlər:

- Kommersiya pilotu şəhadətnaməsi ilə (CPL - Commercial Pilot License),
- Hava nəqliyyatı pilotu şəhadətnaməsi ilə (dondurulmuş) (ATPL - Airline Transport Pilot License) (froozen).

CPL kateqoriyası almaq üçün tələbələr “Cessna-172S” təyyarəsində 150...180 saat uçuş təlimi keçirlər.

ATPL kateqoriyası almaq üçün tələbələr əlavə olaraq 90 saat konkret hava gəmisi trenajorunda (FFS – Full Flight Simulator) trenajor təlimi keçirlər.

“Cessna-172S” təyyarəsində 1 uçuş saatı 200 ABŞ dolları məbləğindədir.

Konkret hava gəmisi trenajorunda (ATR 72-500, Boeing 757/767, Airbus A320, Embraer 190) 1 uçuş saatı (2 nəfərlik heyət üçün) 400 ABŞ dolları məbləğindədir.

**“050613-Hava nəqliyyatının hərəkətinin təşkili”** ixtisasında praktiki təlimlər ümumi trenajor hazırlığından ibarətdir və 315 saat təşkil edir. Trenajor hazırlığının 1 saatının qiyməti 110 ABŞ dolları məbləğindədir.